# AZƏRBAYCAN

**Azərbaycan Respublikası**

**Hökumət bütün növ müxalif fikirlərə qarşı repressiyalara davam edib və ölkədə yüzlərlə insan saxta və siyasi motivli ittihamlarla həbsdə qalmaqdadır. Müstəqil QHT-lər və yerli qruplar ciddi məhdudiyyətlərlə üzləşiblər. Dinc etirazlar əzişdirilib. İşgəncə və digər pis rəftar halları, eləcə də bu cinayətləri törədənlərin cəzasız qalması genişmiqyaslı yayılmış vəziyyətdədir. Qadınlar və LGBTQİ fərdləri ayrı-seçkilik, gender əsaslı zorakılıq və dövlət tərəfindən təqiblərlə üzləşməyə davam ediblər.**

## ÜMUMİ MƏLUMAT

Daxildəki insan hüquqları vəziyyətinin pisləşməyə davam etməsinə baxmayaraq, Azərbaycan Aİ və ABŞ-la münasibətlərini dərinləşdirməyə davam edib. Avqust ayında ABŞ-ın vasitəçiliyi ilə imzalanmış Ermənistan–Azərbaycan sülh sazişi Dağlıq Qarabağ bölgəsi üzrə uzun müddətdir davam edən münaqişəyə son qoymağı hədəfləyib.

## İFADƏ AZADLIĞI

Hökumət tənqidi səslərə qarşı repressiyalara davam edib. Aralarında insan hüquqları müdafiəçiləri, jurnalistlər, akademiklər və müxalifət nümayəndələri də daxil olmaqla 300-dən çox şəxs saxta və siyasi motivli ittihamlarla həbsdə saxlanılıb.[1]

2022-ci il Media haqqında qanuna edilən dəyişikliklər bütün media qurumları üçün icbari qeydiyyatı genişləndirib və Medianın İnkişafı Agentliyinə veb-saytları əsassız bloklamaq, onların məzmununu silmək və ya tələblərə əməl etməyən xarici media ofislərini bağlamaq səlahiyyətini verib. Bu müddəalar, həmçinin qeyri-müəyyən əsaslarla "yalan məlumatın" yayılmasını kriminallaşdırıb, xəbər agentliklərinin üzərinə əsassız tənzimləmə tələbini qoyub və Media Reyestrinə daxil edilməyən hər hansı çap mediasının dərc olunmasını qadağan edib.

Fevral ayında hakimiyyət BBC Azərbaycanca Xidmətinin lisenziyalaşdırma prosesini blokladıqdan sonra təşkilat fəaliyyətini dayandırıb. Oktyabr ayında isə hakimiyyət təşkilatın filialının qanunsuz işlədiyini bəyan edib. Son müstəqil media qurumlarından biri olan TURAN informasiya agentliyi də fevralda bağlanıb.

Hakimiyyət jurnalist fəaliyyətini məhdudlaşdırmaq üçün ölkədən çıxışa qadağalar tətbiq edib. Nəticədə ən azı 40 vətəndaş cəmiyyəti fəalı və jurnalistə əvvəlcədən xəbərdarlıq edilmədən bu cür məhdudiyyətlər qoyulub.

## QANUNSUZ HƏBSLƏR VƏ SAXLAMALAR

Korrupsiya və ya insan hüquqları pozuntuları barədə xəbər hazırlayan jurnalistlər xüsusilə hədəfə alınaraq, qaçaqmalçılıq, çirkli pulların yuyulması, vergidən yayınma və "qanunsuz sahibkarlıq" kimi saxta ittihamlarla üzləşiblər. 30-a yaxın jurnalist həbsdə və ya uzadılmış həbs qətimkan tədbirilə saxlanmaqdadırlar.[2]

İyun ayında jurnalistlər Fərid Mehrəlizadə və Hafiz Babalı ilə yanaşı Abzas Medianın jurnalistləri Ülvi Həsənli, Sevinc Vaqifqızı, Nərgiz Absalamova, Elnarə Qasımova və Məhəmməd Kekalov ədalətsiz məhkəmələrdən sonra valyuta qaçaqmalçılığı və saxtakarlıq daxil olmaqla müxtəlif ittihamlarla doqquz ilə qədər azadlıqdan məhrum ediliblər.

2024-cü ilin dekabrı ilə 2025-ci ilin mayı arasında jurnalistlər Ramin Deko, Aynur Qəmbərova, Xəyalə Ağayeva, Natiq Cavadlı, Aysel Umudova, Fatimə Mövlamlı, Nurlan Qəhrəmanlı, Şəmşad Ağa və Ülviyyə Quliyeva müstəqil media qurumu Meydan TV-yə qarşı açılmış cinayət işi çərçivəsində valyuta qaçaqmalçılığı ittihamı ilə həbs olunublar. Onların həbs qətimkan tədbirləri dəfələrlə uzadılıb.

İlin sonunda, məhkəmə prosesləri hələ tamamlanmandığına görə, Toplum TV jurnalistləri Fərid İsmayılov, Müşfiq Cabbarov və Ələsgər Məmmədli, eləcə də Yoldaş Mediadan Əhməd Məmmədli oxşar qondarma ittihamlarla həbsdə qalmaqdadırlar.

Tədqiqatçılar və akademiklər də hədəfə alınıb. İqbal Əbilov 18 il, Bəhruz Səmədov isə qondarma dövlətə xəyanət ittihamı ilə 15 il müddətinə azadlıqdan məhrum edilib.

2024-cü ilin dekabrında həbs olunan müxalifətçi Azər Qasımlı və noyabrda Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) bir neçə üzvü ilə birlikdə saxlanılan partiya sədri Əli Kərimli, ilin sonunda mübahisəli rüşvətxorluq və dövlətə xəyanət ittihamları ilə həbsdə saxlanmaqdadırlar.

Üçüncü Respublika platformasından Akif Qurbanov və Ruslan İzzətli, həmçinin Demokratik Təşəbbüslər İnstitutunun üç əməkdaşı, Əli Zeynalov, Ramil Babayev və İlkin Əmrahov ilin sonunda şübhəli valyuta qaçaqmalçılığı ittihamı ilə həbs qətimkan tədbirində qalmaqdadırlar.

## BİRLƏŞMƏ AZADLIĞI

Müstəqil QHT-lər və vətəndaş cəmiyyəti fəalları ciddi məhdudiyyətlər, qısnamalar və əsassız təqiblər ilə üzləşməyə davam ediblər.

Fevral ayında prokurorluq vətəndaş cəmiyyəti qruplarını 2014-cü ildə hədəfə alan cinayət işini yenidən açıb. Mart ayında koordinasiyalı polis reydləri nəticəsində vətəndaş cəmiyyəti nümayəndələri Bəşir Süleymanlı, Məmməd Məmmədzadə və Asəf Əhmədovla yanaşı sosial işçi Zamin Zəki saxlanılıb. Məhkəmələr qondarma maliyyə və vəzifə səlahiyyətlərindən sui-istifadə ittihamları ilə onların həbs qətimkan tədbirinin davam etdirilməsinə qərar verib və səhhətlərində ciddi narahatlıqlara baxmayaraq, azadlığa buraxılma barədə vəsatətləri dəfələrlə rədd ediblər.

QHT nümayəndələri Mehriban Rəhimli, Hafiz Həsənov, Qalib Bayramov və Nərgiz Muxtarova eyni araşdırma çərçivəsində polis nəzarətinə götürülüb. Ən azı 50 vətəndaş cəmiyyəti nümayəndəsi şahid və ya şübhəli şəxs qismində dindirilib və nəticədə mövcud olan qorxu və özünüsenzura mühiti daha da gücləndirilib.

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli saxta qaçaqmalçılıq ittihamı ilə həbs qətimkan tədbirində qalmaqdadır. Aprel ayında ona qarşı irəli sürülən yeni ittihamlar arasında, vergidən yayınma, saxtakarlıq və qeydiyyatsız iqtisadi fəaliyyət də daxil edilib. Avqust ayında vətəndaş cəmiyyəti fəalı Anar Abdulla, hakimiyyət tərəfindən polis nəzarətinə vermə qətimkan tədbirinin qaydalarına əməl etməməkdə iddia olunaraq həbs edilib.

Müstəqil həmkarlar ittifaqları və yerli qruplar da hədəflənib. İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının sədri Afiəddin Məmmədovun saxta ittihamlarla səkkiz il müddətinə azadlıqdan məhrum edilməsindən və bir neçə üzvünün saxlanılmasından sonra konfederasiya yenidən təzyiqlərlə üzləşib. Gənc Qazilər İctimai Birliyinin rəhbəri Hacı Vəliyev xuliqanlıq ittihamı ilə həbs edildikdən, nəzarət altında olarkən işgəncəyə məruz qaldıqdan sonra birlik faktiki olaraq dağıdılıb. Qrup fəaliyyətini may ayında dayandırıb.

## DİNC TOPLAŞMA AZADLIĞI

Dinc toplaşma azadlığı ciddi və əsassız şəkildə məhdudlaşdırılmaqdadır və hakimiyyət dinc etirazlarda iştirak edənləri həbs etməyə davam etməkdədir. İşçi hüquqları, siyasi müxalifət və dini ayinlərlə bağlı aksiyalar qadağan edilib və onların iştirakçıları və təşkilatçıları təqib olunub. İyul ayında çatdırılma haqlarının azaldılmasına görə etiraz aksiyası planlaşdıran kuryerlər polis şöbəsinə çağırılıb və sosial şəbəkələrdəki paylaşımlarını silmək üçün onlara təzyiq göstərilib.

Müxalifət partiyası üzvlərinin toplaşmasına mütəmadi olaraq maneələr yaradılıb. Sentyabr ayında polis AXCP sədri Əli Kərimli, Milli Şuranın sədri Cəmil Həsənli və digərlərinin ictimai tədbirdə iştirakının qarşısını alıb. Daha sonra bir neçə AXCP fəalı əsassız narkotik və ya xuliqanlıq ittihamları ilə həbs edilib.

Dini yığıncaqlara da məhdudiyyətlər qoyulub. 6 iyulda şiə icmalarına Aşura mərasimlərini müvafiq tarixdə keçirməyə icazə verilməyib və bir neçə məsciddə mərasimlərin keçirilməsi qadağan edilib.

## BEYNƏLXALQ HUMANİTAR QANUN POZUNTULARI

Azərbaycan hakimiyyəti Dağlıq Qarabağ münaqişəsindən təsirlənən şəxslərin hüquqlarının müdafiəsini və onlara məsuliyyətini təmin edə bilməyib. Oktyabr ayında Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycana, 8-i de-fakto keçmiş Dağlıq Qarabağ rəsmiləri olan 23 erməni məhbusun saxlanma və sağlamlıq şəraiti barədə məlumat verilməsinə göstəriş verib.

## İŞGƏNCƏ VƏ DİGƏR PİS RƏFTAR

Döyülmə, hədə-qorxu, cinsi zorakılıq, etirafedici ifadələrin məcburi alınması və tibbi yardımın göstərilməməsi barədə məlumatlar daxil olmaqla, işgəncə və digər pis rəftar halları genişmiqyaslı şəkildə yayılmaqdadır. Hakimiyyət bu cür iddialar üzrə effektiv və müstəqil araşdırmalar aparmamaqla günahkarların cəzasızlığını təmin edib.

İyun ayında Müsəlman Birliyi Hərəkatı iddia edib ki, üzvlərindən biri olan Elgiz Məmmədovun etiraf videosunu çəkdirməyə cəhd edərkən, o məruz qaldığı işgəncələr nəticəsində xəsarət alıb. Avqust ayında ehsan paylayarkən saxlanılan yeddi inanclı qadın döyüldüklərini, cinsi zorakılıqla hədələndiklərini və vəkillə təmin olunmadıqlarını deyiblər.

Həbsxanalarda pis rəftar sistemli xarakter daşımaqdadır. Abzas Medianın qadın jurnalistləri və Toplum TV işi üzrə təqsirləndirilən şəxslər zorakılıq, cəza xarakterli köçürmələr və məhkəmə iclasları zamanı uzun müddət qandallı saxlandıqları barədə məlumat veriblər. Müharibə veteranı Hacı Vəliyev və həmkarlar ittifaqı fəalları Elvin Mustafayev və Afiəddin Məmmədov dəfələrlə və uzun müddət qapalı rejimli təcridxanada saxlanıblar.

Tibbi yardımın göstərilməməsi adi hala çevrilib və saxta ittihamlarla həbs olunanların bir neçəsinin sağlamlığı pisləşməyə davam edib. Fəal Möhyəddin Orucovun böyrək xəstəliyinə baxmayaraq, ona yalnız ağrıkəsici dərmanlar verilib.

## CİNSİ VƏ GENDER ƏSASLI AYRI-SEÇKİLİK VƏ ZORAKILIQ

Hakimiyyət hüquq pozuntularının qarşısını almaqda, onları araşdırmaqda və ya pozuntuları törədənləri cəzalandırmaqda aciz qaldığına görə, qadınlar və LGBTQİ fərdləri gender əsaslı zorakılıq və dövlət təqibləri daxil olmaqla, diskriminasiya ilə üzləşməyə davam ediblər.

8 martda LGBTQİ fəalı Rauf Heydərova Bakıda keçirdiyi təkadamlıq etiraz aksiyasından sonra 30 sutka inzibati həbs cəzası verilib.

4 noyabrda həmçinin Rüzgar adı ilə tanınan LGBTQİ gənc Yasin İbadov, cinsi orientasiyası ilə bağlı əvvəllər aldığı təhdidlərdən sonra Bakıda ailə üzvü tərəfindən bıçaqlanaraq öldürülüb. Şahidlər polisin və tibbi yardımın hadisəyə gec reaksiya verdiyini bildiriblər.

---

[1] *Azərbaycan: Azərbaycanda insan hüquqları vəziyyəti üçün ümid görünmür: Ciddi və sistemli insan hüquqları pozuntuları sərt tənqid olunmalıdır, 23 yanvar*

[2] *Azərbaycan: Xəbər otağından həbsə. Müstəqil jurnalistlərin təqibi, 22 iyul*